Ədəbiyyat qəzeti

10 oktyabr 2020-ci il 21

*Xanəli*
*KƏRİMLİ*



# *Vur, əsgərim, Haqq sənin, həqiqət də sənindir...*

*Şanlı ordumuza*

*...Otuz ildir qələmim qəzəbindən boğulur,*
*Otuz ildir ümidlər bələyində boğulur,*
*Otuz ildir arzular sinələrdə dağ olur,*
*Otuz ildir millətin səbri də sovrulur...*
*İndi zaman dəmidir, indi günəş doğulur...*
*Vur, çatlasın, əsgərim, düşmənin qan yaddaşı!..*
*Ucalsın enməzliyə Vətənin məğrur başı!..*

*Bu günün şairi də, qibləgahı da sənsən,*
*Sənin qalib zəfərin zamanın dastanıdır.*
*Səngər-səngər döyüşüb qaldırdığın o bayraq*
*Vətən şəhidlərinin al-qırmızı qanıdır...*
*Vur, əsgərim, düşmənin sönsün o son çırağı!..*
*Kəsilsin düşmən əli, qoy pozulsun növrağı!..*

*Bu bir şanlı tarix ki, düşübdü xoş bəxtinə,*
*Bu tarixi yaradan, bu tarixi yazan sən,*
*Yazdığın bu tarixin hər anı qan yaddaşı,*
*Bu tarix yazılarmı öz canından keçməsən?!*
*Vur, əsgərim, qələbə, qələbə bizimlədir!..*
*Ən böyük davamızsa gələcəkdə-öndədir!..*

*Qarabağ havasına köklənsən də bu gün sən*
*Zəngəzur, Göyçə gölü gözləyir yolunuzu.*
*İrəvan xanlığının xanlığını qaytarıb*
*Sarın Vətən boynuna o məğrur qolunuzu...*
*Vur, əsgərim, Vətənin gülsün dağı, aranı!..*
*Qoy axsın səngər-səngər düşmənin murdar qanı!..*

*Arxanda dayanıbdı o Ali Baş Komandan,*
*Hər addımı qətiyyət, hər addımı cəsarət!*
*Millətin ruh bayrağı, bayraqdarı da Odur,*
*Odur Haqqın haqq səsi, o səsdə ulu qeyrət...*
*Vur, əsgərim, möhkəm vur həqiqətin zəfərin!..*
*Təngiməsin, bitməsin tarix yazan hünərin!..*

*Sənin baban qan töküb Vətən qurub hünərlə,*
*Düşmənə qan uddurub tarix boyu zəfərlə.*
*Qoru Vətən mülkünü Şah İsmayıl təpərlə,*
*Misri qılınc əlində, dəliləri səfərlə...*
*Vur, əsgərim, dağılsın düşmənin son sipəri!..*
*Zəfərin qoy çulğasın anamız Göyü, Yeri!..*

*Vur, əsgərim, Haqq sənin, həqiqət də sənindir,*
*Həqiqətə kor olan Həqiqətə qənimdir.*
*Bu Vətən həm millətin, bu Vətən həm sənindir,*
*Sən millətin oğlusan, bu millət də sənindir...*
*Vur, əsgərim, əlinlə tarixə öz möhrünü!..*
*Nəsillər də qorusun doğma Vətən mülkünü!..*

*Bu gün Vətənin gözü səníntək qeyrətdədir!*
*Bu gün düşmənin gözü sənintək heyrətdədir!*
*Bu günün hər anı da cəsarət, cürətdədir!*
*Nə mənsəbdə, nə "ad"da, nə ucuz şöhrətdədir...*
*Vur, əsgərim, möhkəm vur cəsarətin cəngini!*
*Qaytar bir də özünə millətin ahəngini!..*

*...Vur, əsgərim, Haqq sənin, həqiqət də sənindir!!!*

*05.10.2020*